XOŞBƏXTLİYİNİ ETİRAF EDƏN ŞAİR

"Könül səltənəti" kitabı barəsində düşüncələrim

Öncə ordan başlayım ki, Azərbaycanın tanınmış söz adamları sırasında özünəməxsus yeri olan Rafiq Yusifoğlu poeziya dünyamızda öz İmzasını kifayət qədər sevdirə bilib. Yəni bu İmza İstər elmi araşdırmalarda, İstər poeziya axarında, İstər nağmələrdə, İstərsə də baş redaktoru olduğu "Göyərçin" jurnalında oxucular tərəfindən gözlənilir, axtarılır, İzlənilir.

Uzun illərdən bəri şəxsən tanıdığım və yaradıcılığının böyük bir hissəsi ilə şəxsən ünsiyyət qurduğum, baş-başa qaldığım Rafiq Yusifoğlu bir söz adamı kimi özü həmişə arxa planda dayanır.

Bir addım sözündən geridə dayanıb, sözünü oxucuya təqdimatsız təqdim edən Rafiq Yusifoğlu birmənalı olaraq başını aşağı salıb öz dünyası ilə. Öz qələmi ilə yol-yoldaşlığı edir. Onun dünyasının qapısı da, pəncərəsi da, yolu-yoluması da sözdü, qapı-pəncərəsi də elə o dünyanın işığı da, sərhədləri də. Mən Rafiq Yusifoğlunu tanıdığım, mütaliə etdiyim gündən bəri özüm üçün müəyyənləşdirmişəm ki, Rafiq Yusifoğlu sözdən uzaqda yaşaya bilmir. Onun nəfəsi də sözdü, qidası da sözdü, bütövlükdə sözdən yoğrulub Rafiq Yusifoğlu. Görünür, bu qanaətində yanılmadığını sübut etmək üçün Rafiq Yusifoğlu yazıb bu şeiri:

Ağlayıb gülüməmsə,
xoşbəxtəm, Allahım!
Kiminsə xoşuna gəlirəmsə,
xoşbəxtəm, Allahım!
Sənin yaratdıqlarını
sevə bilirəmsə,
xoşbəxtəm, Allahım!

Doğrudan da, belə dərindən düşünəndə, məhz bu şeirin içərisinə girəndə xoşbəxtliyin hər kəsin öz ovcunun içində görməmək, ona sahib çıxmamaq adama bir az qəribə gəlir. Yəni qarşında olan xoşbəxtliyi doğrudanmı görə bilmirsən? Axı xoşbəxtlik üçün çox adi, çox elementar

şeylər gərəkdir. Taxt, tac, villa, pulpara, şöhrət, mənsəb yox, məhz Rafiqin dedikləri gərəkdi insana xoşbəxt olsun.

Yəni ağlayıb güla bilsin, sevə bilsin, düşünə bilsin, duya bilsin və bir də kiminsə xoşuna gələ bilsin. Zənnimcə, bu, şairin xoşbəxtlik barəsindəki konkret bir riyazi düsturudur. Mən bu düsturu alqışlayıram.

Rafiq Yusifoğlu məhz o düsturdan çıxış edərək təbiətə də heyranlığını, sevgisini çox rahatlıqla ifadə edib. İstər gül bayramı olsun, istər lələ dənizi, istər Bakının küləkləri, meşələr, ormanlar, fərqi yoxdur. Bunların hamısına Rafiq Yusifoğlu həmin düsturdan yanaşır və yazır:

Meşəyə heyratlə baxıram,-
Meyvə ağacları kimi
çiçəklayib içim də...
Bəbəklərim
bahar buludlarına
banzayır, -
Bir leysan uyuyur
içimdə...
Ürəyim səksəkədə
gözlərimsə
uşaqlara baxır...
Meşəyə bahar,
qəlbimə isə
həsrət yağışları
yağır...

Bəli, doğrudan da dünyaya içəridəki sevgidən baxa bilsən onun sirlərinə də yol tapa bilərsən. Özünə də, hətta sirlərindən agah olduğun, yaşadığın bu dünya səni öz gözəlliyi ilə, öz sehrləri ilə dərddən-qəmdən çəkib qopara bilər. Təəssüf ki, biz bəzən bunun fərqinə varmırıq. Eləcə dərdi, qəmin yaxasından yapışıb ancaq onun izlərini ömrümüzdən silməyə cəhd göstəririk. Belə olan halda isə ömrün qayğılar içərisində necə keçdiyindən bəzən xəbərimiz də olmur. Xəbər tutanda isə... Rafiq Yusifoğlu yazır:

Qoymadı
səpdiklərim bitə,-
əlandı qar şuma...
Üreyin böyük sevgiyə
hazır deyildisə,
Niyə çıxdın
qarşıma?

Doğrudan da sevgi adlı uzun, ağrılı-acılı, oddan-alovdan keçən yola hazırlıqsız çıxmaq nə deməkdir? Umumiyyətlə, bu kimə lazımdır? Zənnimcə, sevənlərə gərək deyil. Heç onlar bunun izinə də düşmürlər. Olsa-olsa sevgini aylanca sayanlara, sevgi ilə oynayanlara gərək ola bilər. Olsun. Bəs son? Sonda dörd divar arasında qalmaq, atılmaq, sınmaq necə bəs? Onu göz önünə alırsınızmı?..

Mən Rafiq Yusifoğlunun üç fəsildən ibarət olan kitabını oxuduqca yuxarıda vurğuladığım sualların cavabları ilə hər misrada qarşılaşdım. Mənə elə gəldi ki, Rafiq təkcə yaşadıqlarını, duyduqlarını yox, həm də özündən bir addım qabaqda olan sözünün diqtəsi ilə tablo çəkir. Bu tabloların hər birində məhz yaşamın, yaşanacaqların cizgiləri üzümüzə gülümsəyir. Bu təbəssüm həm də bir işıqdı.

Elə bil ki, asılıb
Qəlbim göy qurşağından.
Yol gedirəm gecələr
Sevgimin işığında.

Həsrət nuru borq vurur
Damlasında yağışın.
İçimi nurlandırır
Onun bircə baxışı...

Və yaxud:

Daha sevinc boylanacaq gözündən,
Əzabların baş götürüb gedəcək.

Mənli dünya səni aldı özündən
Mənsiz dünya səni xoşbəxt edəcək...

Və yaxud:

Dərdin alları var sənin yaxanda
Gözlərin önündən duman, çən keçir.
Tanrı dərgahından yera baxanda
Sənі xoşbəxt görmək könlümdən keçir...

Zənnimcə, son dərəcə səmimi hisslərin, etirafların işığında ancaq sevməyi, sevilməyi düşünmək dünyanı başdan-başa işıqda görmək mümkündür.

Çünki şair bütün varlığı ilə öz ürəyini alovlandırır, öz varlığını da o alova bükür və sərgiləyir oxucunun qarşısında. Əslində Rafiq Yusifoğlunun sözü budur, poeziyası budur! Özü də vurğulayır ki, başqasının sevincinə sevinməyən tənhalığa məhkumdur. Rafiq həmin fikri poetik olaraq belə misralayır:

Təkcə özünü düşünən
Cücərə bilməyən
çürük tumdu.
Heç kəsin sevincinə
şərik olmayan
tənhalığa məhkumdu...

Bəli, mən Rafiq Yusifoğlunun poeziyasında böyük etirafларla da üz-üzə gəldim.

Həmin etirafların hər biri də şairin özünün özündən sorğusudu, özünün özünə diqtəsi, özünün özündən cavab umması, özünün özü ilə bir növ haqq-hesab çəkməsidi. Bax, bu şeirdə olduğu kimi:

Mən ki, sənə heç zaman
əziz olmamışam,
İndi bu nə umu,
bu nə küsüdü?
Gizli yazışmaların
sənin qəlbinin
güzgüsüdü...

"Könül səltənəti"ni oxuduqca Rafiq Yusifoğlu poeziyasının könlümə hakim olduğunu bir daha hiss etdim. Və birmənalı olaraq duydum ki, söz qələmlə ürək arasında körpüdü. Ürəkdən qələmə, qələmdən kağıza, kağızdan isə təkrar oxucu könlünə qayıda bilən söz yaşayan sözdü. Rafiq Yusifoğlu yaşayan sözün sahibidir.

Mən bu kiçik qeydlərimi elə onun öz misraları ilə yekunlaşdırıram. Düşünürəm ki, bu misralar qələm dostum barəsində söylədiyim fikirlərin daha bir sübutu olacaq:

Məni dinc durmağa qoymur ürəyim,
Qaynar ocaqların közü məndədir.
Bu gözəl dünyadan doymur ürəyim,
Elə dünyanın da gözü məndədir...

Əbülfət MƏDƏTOĞLU

Azərbaycanla Koreya arasında Qrant Sazişi imzalandı

Azərbaycan Təhsil Nazirliyi ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Naxçıvan Dövlət Universiteti üçün Elektron Təhsil Şəbəkəsi və Rəqəmsal Multimedia İnfrastrukturunun yaradılmasına dair Qrant Sazişinin İmzalanması mərasimi keçirilib.

Nazirlikdən APA-ya verilən xəbərə görə, təhsil naziri Misir Mərdanov son illər Azərbaycana dost ölkə olan Koreya ilə müvafiq İstiqamətdə əməkdaşlığın genişlənməsini yüksək dəyərləndirib. O, İmzalanacaq sazişin İki ölkə arasında təhsil sahəsindəki əməkdaşlığa töhfə verəcəyinə İnamını İfadə edib.

Koreyanın Azərbaycandakı səfiri Çol Suk-İn Naxçıvan Dövlət Universiteti üçün Elektron Təhsil Şəbəkəsi və Rəqəmsal Multimedia İnfrastrukturunun yaradılmasına dair Qrant Sazişinin İmzalanmasının əhəmiyyətini qeyd edib. Səfir Azərbaycanla Koreya arasında təhsil sahəsində əməkdaşlığın daha da İnkişaf edəcəyinə əmin olduğunu bildirib.

Sonra Azərbaycan Təhsil Nazirliyi ilə Koreya Xarici İşlər və Ticarət Nazirliyi arasında Naxçıvan Dövlət Universiteti üçün Elektron Təhsil Şəbəkəsi və Rəqəmsal Multimedia İnfrastrukturunun yaradılmasına dair Qrant Sazişi İmzalanıb. Sazişi Azərbaycanın təhsil naziri Misir Mərdanov və Koreyanın Azərbaycandakı səfiri Çol Suk-İn İmzalayıb. Sazişin əsas məqsədi tələbələrə onlayn təhsil xidmətinin göstərilməsi üçün portal, distant təhsil, elektron kitabxana və rəqəmsal multimedia İnfrastrukturu elektron təhsil şəbəkəsinin yaradılmasıdır.

Sergey Lavrovdan Avropa dövlətlərinə çağırış

Rusiyanın xarici İşlər naziri Sergey Lavrov Avropa ölkələrini sərhədlərin dəyişdirilməsinə yol verməməyə və Helsinki Aktının əsas prinsiplərinə riayət etməyə çağırıb.

APA-nın məlumatına görə, S. Lavrov bu fikirləri keçirdiyi mətbuat konfransında Balkanlarda münaqişələr ehtimalı ilə bağlı suali cavablandırarkən deyib.

"Avropada sərhədlərin dəyişdirilməsi məsələsinə gəldikdə bunu demək zəruri sayıram - bütün dövlətlər Helsinki Yekun Aktının əsas prinsiplərinə dönməden riayət etməlidirlər", - deyə S. Lavrov vurğulayıb.

Əllərimə heç vaxt dəyməyən əllər



Aysel Qarabəyli

Hər açılan səhər hələ
yaşamaqçün bəhanə deyil...
Bilirsən ki, yenə gələcək gecə...
Gecənin gəlməsi də ölüma səbəb deyil.
Bilirsən hardasa var bir səhər...
Qırtlağına bıçaq kimi dirənsə də qəhər,
sabah unudacaqsan hər şeyi,
düşəcəksən bir tika çörək dardına...
Hansısa bir başbatmışın xətrinə
çıxacaqsan küçəyə
və külək yelləda cək sənі
kiminsə zivadan asılan yırtıq çuxası kimi...
Günəş zenit nöqtəsinə dirənanda
İçinin göz-gözü qərmənə qaranlığında
bir-birini tanımayanda duyğuların,
itiranda solun-sağın,
güclə sürüdüyün ayaqlarınla
qayıdacaqsan xarabana axşam düşəndə...
Qorxuların ruhunda
qarışqa kimi gəzişəndə,
bu gecədən səhərə sağ çıxmağa
daha qalmayanda dözümün,
məzar kimi soyuq yorğan-döşəyində
açıla bilməyəndə buz kəsmiş dizin
düşünəcəksən ki,
gərək elə səhər asaydın özünü
düz kallənə düşən Günəşin şüasından...
Ya da Ayın kölgəsi və İşığı altında
İki yera bölünən yatağında
uzanıb paralanaydın...
amma İşıq düşən tərəfdə...
Heç olmasa ölümün İşıqlı olaydı...
Və səhər dibçəkdəki
hələ açılmamış güllərini
elə köklü-kökcəli kimisə qopardıb
hələ təzəcə qazılmış
qəbrinin üstünə qoyaydı...
Artıq heç kəsə lazım olmayan
bir cüt köhnə ayaqqabını
küçə uşaqları götürüb geyəydi,
gəlib qəbrinin üstünə ruhuna
Fatiha oxuyaydı...
Və biləydin ki, hardasa bir İnsan
qəribsəyib səni...
Və hardasa bir Günəş
sənі xilas edə bilmədiyi üçün
özü-özündən utanır,
hardasa bir Ay özünü sənin qətilin sanır...

***

İçimdəki şeytan yem axtarır...
Ruhumun qurbanı bəs elamir ona.
Sökülmüş ruhumun tüllüna bürünüb
açdığı qara dəşiklari sayr bir-bir...
Ulayır yalquzaq səsiylə...
Bazan falakati maqnit kimi çəkən,
cazibə qanununa uyan qara dəşiklarin
udduğu günəşimin qızılı hörüklərini
soldurur od nəfəsiylə.
Deyasən, İnkir-minkira İş qalmayacaq...
Mizan-tərəzi gərək olmayacaq...
Ruhumda söndürülən Günəşin
solmuş telləri şəhldilk edəcək
günahlarıma.
Qıl körpüsü İkiyə bölünəcək...
İçində Günəşi söndürülən şair
qurğusundan ağır olur.
Cahannamin qaynar çöllərində
ruhum çürüyəcək
İçində ölü Günəş...

***

Anasının batnində İkən
Şuşadan qaçqın düşən uşağın
İndi İyirmi yaşı var.
Mən Şuşanı görməya-görməya
İçimdən Şuşa düşəndə
on yaşım vardı.
O, anasının batnində
ola-ola son dəfə görüb Şuşanı...
Mən vatanimin göbəyində ola-ola
İlk dəfə da görməmişəm.
Mən ondan on yaş böyüyəm,
o, məndən on yaş küçük...
Amma bu küçkliyiylə da
o, məndən İyirmi yaş böyükdü.
Çünki o, anasının ciyərləriyla
Şuşadan udduğu
sonuncu yudum havanı
düz İyirmi İl böyüdüb İçində.

***

Gecənin bir yarısı...
Yağışın səsinə bax...
Xışıldayan yarpaqlar
sanki aks-sadasıdı
yağış dualarının...
Bu yağış zümzüməsi
Haqqa yalvarışıdı
nahayətsiz səmanın.
Sanki dəstəmaz alıb
namaza durub gecə,
Ay gecənin alnında
möhür yeri kimidir...
Uldızlar təsbeh kimi
gecənin əllərində...
Allahın adlarını
bircə-bircə zikr edir.
Sanki mömin İnsantək
gecə İşə namazında
Allaha təzim edir.

***

Yox, çığırıb-bağırmaq lazımdır...
Pəncərəni açıb
guya özünü atırmış kimi
sallamaq lazımdır ayaqlarını
aşağı...
Yoxsa bir-birina söykənmiş
bu on altı mərtəbəli
binalarda yaşayan
bəxtəvər İnsanlar bilməzlar ki,
aylardı İlti İşlamayan
bir doqquzmərtəbə binanın
düz doqquzuncu mərtəbəsində
batnində doqquz aydır
çıxa bilməyən şeirləri çürüyən
badbəxt bir şair var...

***

Əllərimə heç vaxt dəyməyən əllər
nə bilsinlər ki,
neco soyuq olur əllərim...
qışda da, yazda da,
yayda da, payızda da...
Bilmiram əvvəlcədənmi
ölüma hazırlıqır özünü...
Hansı bir fəsildəsə xəyal edir
öz bayaz, çəhrayı,
yaşıl, qızılı ölümünü...
Ya sevgisiz ölüb gedəcəyi
düşüncəsi dondurub
damarındakı qanını,
ya sevmədən
sevgidan yazdığı şeirlərin
ölüm qorxusudur
bürüyüb canını...

***

Varmı bu dünyada məntək olanlar?

Yorğun qollarımdan qəralmış göylər
yüz pudluq daş kimi asılıb qalıb.
Yüz İldi Allaha sarı gedirəm,
Orda bir məzarım qazılıb qalıb.
Niyə belə qarıb, bu qədər yaddı
üstündə gəzdiyim bu tanış torpaq?
Sanki Allah mənі sürgüna atıb,
Bura qumlu vadi, sarımtıl quraq.

Bəlka yüz İl əvvəl dünyaya gələn
birinci ruhumun günahlarıyam?
Bəlka sinasina güllələr dayən
bir nakam şairin son ahlarıyam?

Gözüma dirənan qapı-pəncərə
elə bil sabah yox, ölüm gətirir.
Şüşə arxasında solğun manzarə
İçima qəribə hüzün gətirir.

Varmı bu dünyada məntək olanlar?
Ruhumun maskani darma-dağınıq.
Pəncərəm önündə saç-baş yolanlar,
Ağac da olsanız, ela yaxınıq.

Çıxıram küçəyə, üstümə çökən
yerlərə, göylərə deyim gəlirəm.
Bu cansız bədəndə bir can var İkən
ruhumu Allaha qurban deyirəm.

Etiraf olunmayan sevgi

Nə sən onu tanıyırdın,
nə də o sənі...
Hər gün gedib-gəldiyiniz
yollarınız birdi.
Hər gün bir avtobusa minərdiz
səhər-axşam...
Sən çox vaxt oturardın,
osa bir küncdə durub
baxardı sənin hayacandan
alindəki dəsmalı
bürüb-büküb, sonra təzədan açan
sürətli barmaqlarına...
Bəlkə düşündərdi ki,
o barmaqlar o cür sürətlə
pianinonun ağ-qara dillərində da
raqs elayir,
ya da varəq üstündə
ora-bura qaçışan sözlərin dalınca düşüb
onları tutmaq İstayir...
Salmaq İstayir bir vazna, ahanga,
sonra da ad qoymaq İstayir...
ya şeir, ya hekaya, ya da kimasə
heç bir zaman verilməyəcək
sevgi maktubu...
Sonrasa eyni bir yerda düşərdiz...
Sən tutacaqlardan tutub
yavaş-yavaş pillələrdən enəndə,
o barmaqlarının
tutacaqlarda qalan İstisinə
tutardı alini və düşünərdi ki,
o qız heç vaxt İmkan verməz
əllari əllarinda İsina.
Ovcunda saxlayardı
əllərinin İstisini,
soyuq qış günlarinda
qızınmaq üçün
avtobus dayanacağında

külayin şiddatli hamlalarina
güclə tab gatiran ağac kimi
yellana-yellana...
Bir-birinizə yad
və bu qədər tanış...
Və bir tək sizi
təpədan-dırnağa kimi İsladıb
səhər yuxusundan oyadan yağış
söyləyərdi sizə hardan:
danış ona hər şeyi, danış...

Sevginin həndəsi təzahürü

İki nöqtədən keçən bir düz xətt kimi
keçdi İçimizdən sevgi...
O İki nöqtəya bir nöqtə da əlavə elayib,
ondan İki xətt keçirib
üçbucaq da eda bilərdik...
O İki nöqtəya İki nöqtə alava elayib,
ondan üç xətt keçirib
düzbucaq da eda bilərdik...
Ancaq təəssüf ki,
ancaq İki nöqtənI birləşdirən
bir düz xətt kimi keçdi İçimizdən...
Keçdi bir anlığa, İanglmadı.
Na sağa buruldu, na sola...
Sevginin bütün bucaqları
boyunca harakat etmadi.
Demali sevgi deyildi.

Bir skripka səsiyla inləyir gecə

Bir skripka səsiyla inləyir gecə,
Hansısa notunu meh oğurlayır.
Bir evin damına çıxıb gizlicə
Səsinin notunu orda arayır.

Re-minor İadında köklanib göylər,
Baxın gözləriyla baxır uldızlar.
Kimsə pəncərəsdən gözünü döyər,
Qamli orkestrdən olubdu bezar.

Kimsə anlamaz ki, Ay niyə solub
İlahi musiqi melodiyasında.
Na bilsin buludlar na üçün donub,
Duruxub yer İla göy arasında.

Bəla bir söz var ki, Haqq hüzurunda
Malaklar da Baxı ila elayir.
Mənim ürəyimin qatı buzu da
Re-minor melodiyasında əriyir.

Bir skripka səsiyla inləyir gecə,
Son notu qəlbimdə gizlamişəm man.
Baxıb gözlərima kimsə xəlvətcə,
Anlarmı o notu neca seviram?

***

Yaşamağa gecikdim...
Vağzaldan çıxıb
ünvanına vaxtında
yetişmayan qatar kimi
zaifdi sürətim...
O qatarı
qafil qarşısına çıxan
yaralı maral marhamati
İangitmişdi...
Mani İsa sevgisizliyin
ömrümdən ötüb keçən
ekspress qatarının
qurtarmaq bilmayan karvanı...

***

Ağacın budaqları torpağın Allaha
dua üçün açılan əlləridi...
Yaşıl yarpaqları duaları.
Yağış yağır,
yuyur yaşıl yarpaqları..
Külək budağından qoparıb
sonsuzluğa aparır...
Allahın huzuruna tərtəmiz gedir
yarpaq dualar.

***

Lampa İşığı tavandan sürüşdü,
soyuq döşəmyə öpüşdü...
Döşəmada İaplr-İaplr gəzişən,
ayaqları bir-birina İlişən
kölgalarini qucağına aldı...
Bir az xəyala daldı,
keçmişi yada saldı...
Yadına düşdü
çıraq olduğu vaxtlar,
çıraqdan axdığı vaxtlar...
Yuxarıdan-aşağı deyil,
aşağıdan-yuxarı baxdığı vaxtlar...
Bu dəm uşaq gəldi,
söndürdü lampa İşığını.
Eh insan, insan...
Qoymur ki, heç nəyi
öz İlkinliyində qalmağa...